# Klassika mövzusuna sözardı...

**(Esse)**

***Heç bir ədib yazanda "klassik əsər yazdığını" düşünə bilməz. Bu, bir yazıçının hansısa ədəbi mükafatı düşünüb yazmasına oxşayır. Hə, klassika - mükafatdır, keçmiş tarixlə zamanın vurduğu möhür, asdığı yarlıqdır.***

Bir az naturfəlsəfə ilə məşğul olaq: klassika yetkinlikdir, "ağsaqqallıq"dır. Amma bu əlaqə "saç-saqqalın" rəngi, buxara papaq, əsa, təsbehlə olan üfüqi əlaqə deyil (ki, yeriyəsən, illər ötə, qocalasan), klassika - şaquli hadisədir. Məsələn, Nizami Gəncəvi "Sirlər xəzinəsi"ni 23-24 yaşlarında yazmışdı.

Özümlə mübahisə eləmək istəyirəm; Şeyxin misralarını xatırlayıram:

**Yüz il sonra sorsan, bəs o hardadır?**
**Hər beyti səslənər: "Burada, burdadır".**

Yaxud

**"Şeirdən ucalıq umma dünyada,**
**Çünki Nizamiylə qurtardı o da..."**

Sonra da Sabiri:

**"Bənzərəm bir qocaman dağə ki, dəryadə durar..."**

Belə çıxır ki, bu böyük şairlər, eyni zamanda, yazdıqlarının "klassika" olduğunu biliblər. Yox, məncə, onların bu sözləri apellyasiya elədikləri həqiqətlərin dürüstlüyünə, uzunömürlülüyünə olan rasional və həm də ruhi əminlikdən başqa bir şey deyildi.

Nizami də klassikdir, Sabir də. Amma ikisi bir arada yox. İkisi müqayisə olunarsa, yalnız Nizami klassikdir. Sabir janrın və dövrün klassikidir. Nizami isə universaldır.

Görünür, klassika anlayışına ən böyük töhfə kimi meydana çıxan klassisizm (onun da kökündə latıncadan mənası "nümunəvilik" olan "classicus" sözü dayanırdı) janrların ciddi iyerarxiyasını elə belə müəyyənləşdirməmişdi. Klassisizmə görə, "oda", "epopeya", "tragediya", belə deyək, ali janrlar sayılır, "təmsil", "komediya"



və "satira" isə aşağı - "alçaq" janrlar hesab edilirdi.

***Əlbəttə, klassik mətnlər həm də onlarla mübahisə açmaq üçündür. Deyirlər, rəssam ağacı yalnız onu gördüyünə görə çəkmir, həm də ona görə çəkir ki, başqa bir rəssamın ağac çəkdiyini görür. Ağac demişkən, meşə - klassikadır, çünki ağaclar insan əliylə əkilməyib. İlahi bir hikmətlə bitib. Parklar, süni meşə zolaqları təmsil kimi bir şeydir. Necə deyərlər, ağaclar əkildi, meşələr mənasını itirdi. Qoy, bu da naturfəlsəfənin davamı olsun.***

**Səlim Babullaoğlu**

Türküstan.- 2021.- 2-8 mart.- S.22.